# KÜRDƏMİR:

# İxracyönümlü məhsul istehsalının artırılması diqqət mərkəzindədir

## Yerli sahibkarların kolumbiyalı həmkarları ilə əməkdaşlığı da gündəliyə gətirilib

***❒ "Ənənəvi pambıqçılıq rayonlarımızdan olan Kürdəmirdə bu sahənin nə qədər səmərəli olduğunu hamı bilir. Ancaq təəssüf ki, ölkənin digər rayonlarında olduğu kimi, burada da həmin gəlirli sahə xeyli müddət diqqətdən kənarda qalmışdı. Son zamanlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ixracyönümlü kənd təsərrüfatı məhsulları istehsalının artırılmasına ayırdığı diqqət və qayğı nəticəsində kürdəmirli pambıqçılar da öz ənənəvi məşğuliyyət sahələrinə qayıdıblar." Bu fikirləri rayon icra hakimiyyətinin başçısı Ceyhun Cəfərov dedi.***



Həmsöhbətim əlavə etdi ki, dövlət başçımızın tövsiyə və tapşırıqlarına əsasən hələ ötən ildən bu sahənin inkişafına start verilmişdi. Bu il isə məsələ daha ciddi şəkildə qaldırıldı. Hələ mart ayının 28-də Saatlıda Prezident İlham Əliyevin sədrliyi ilə pambıqçılığın inkişafı məsələlərinə dair respublika müşavirəsi keçirilmişdi. Müşavirədə geniş nitqlə çıxış edən dövlət başçımız demişdi ki, pambıqçılığın Azərbaycanda qədim ənənələri vardır. Əsrlər boyu xalqımız pambıqçılıqla məşğul olub. Ancaq pambıqçılığın ən sürətli və uğurlu inkişaf dövrü ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun təşəbbüsü və bilavasitə rəhbərliyi ilə 1970-ci illərdə və eyni zamanda, 1980-ci illərin əvvəllərində Azərbaycanda pambıqçılıq sürətlə inkişaf edib. Bu, əlbəttə ki, respublikanın inkişafına səbəb olmuşdur. Məşğulluq yüksək səviyyədə təmin edilirdi. Pambıqçılıqla məşğul olan zəhmətkeşlər öz həyat şəraitini xeyli yaxşılaşdırmışdılar. Dövlət başçımızın yaxın tariximizə ekskurs edərək yada saldığı həmin faktları eşidəndə qazanılmış həmin göstəricilərdə Kürdəmir pambıqçılarının da xüsusi xidməti olduğunu fəxrlə xatırladıq.

Cənab Prezident bu qəbildən olan fikirləri aprelin 17-də Yevlaxda keçirilən qeyri-neft ixracatçılarının respublika müşavirəsində də səsləndirmişdi. Dövlət başçımız Yevlaxda xatırlatmışdı ki, keçən il qəbul edilmiş qərarlar, qanunlar, imzalanmış fərman və sərəncamlar iqtisadiyyatımızı daha da şaxələndirmək üçün yaxşı imkanlar yaratdı. Xüsusilə qeyri-neft ixracı ilə bağlı atılmış addımlar artıq öz gözəl nəticələrini verməkdədir. Güzəştli kreditlər, metodiki tövsiyələr və əlbəttə ki, infrastruktur layihələri öz bəhrələrini verir. Biz bu il 150 min hektara ilk dəfə olaraq su verəcəyik. Bütün bunlar iqtisadi potensialımızı artırır və imkan yaradır ki, sahibkarlar vəsait qoysunlar, məhsul yetişdirsinlər və xarici bazarlara çıxarsınlar, daxili bazarı təmin etsinlər.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə pambıqçılığın inkişafı ilə bağlı Saatlıda keçirilən respublika müşavirəsindən cəmi bir həftə sonra – aprelin 3-də Kürdəmir Rayon İcra Hakimiyyətinin akt zalında dövlət başçımızın adı çəkilən müşavirədəki nitqindən irəli gələn vəzifələrlə əlaqədar geniş yığıncaq keçirilmişdi. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul əməkdaşı Rüfət Məmmədovun, rayonun hüquq-mühafizə orqanlarının, aidiyyəti idarə, müəssisə və təşkilatların rəhbərləri, RİH Başçısının inzibati ərazi dairələri üzrə nümayəndələri, bələdiyyə sədrləri, pambıqçılıq fəaliyyəti ilə məşğul olan təsərrüfat rəhbərləri və ictimaiyyətin nümayəndələrinin iştirak etdiyi tədbirdə RİH başçısı Ceyhun Cəfərov bildirmişdi ki, cənab Prezidentin tapşırığına uyğun olaraq 2017-ci ildə 4 min hektar sahədə pambıq əkilməsi nəzərdə tutulur. Su mənbəyinə yaxın və meliorativ cəhətdən əlverişli torpaq sahələri müəyyən edilib, nəzərdə tutulmuş həmin sahələrin hamısında dondurma şumu aparılıb və arat işləri başa çatdırılıb, sahələr səpin üçün hazır vəziyyətə gətirilib.

Rayon rəhbəri hələ o zaman mətbuat təmsilçilərinə bildirmişdi ki, pambıq əkilən inzibati ərazi dairələri üzrə məhsul istehsalçılarının siyahıları tərtib edilib, onlarla müvafiq emal müəssisələri arasında müqavilələrin bağlanması təmin olunub. Belə ki, 3106 hektarda 164 nəfərlə "MKT İK" MMC ilə, 894 hektarda 31 nəfərlə "Kürdəmir Kənd Təsərrüfatı" MMC ilə müqavilələr bağlanılıb. Pambıq əkiləcək sahələri suvarma suyu ilə təmin edəcək kanallar və arxlar lildən təmizlənib, lazımi hidrotexniki qurğular qurulub, suvarma şəbəkələri hazır vəziyyətə gətirilib. Pambıq əkininin optimal müddətdə başa çatdırılması məqsədilə "MKT İK" MMC tərəfindən rayona ayrılmış texnikalar saz vəziyyətə gətirilib, onlara texniki baxış keçirilib.

Bütün bunlar Kürdəmirdə pambıqçılığın inkişaf etdirilməsi istiqamətində atılan addımların qısa tarixçəsidir. Bəs bu gün rayonda vəziyyət necədir? Rayon icra hakimiyyətinin müvafiq şöbəsindən aldığımız məlumatda bildirilir ki, kənd təsərrüfatının digər sahələrində olduğu kimi, pambıqçılıqda da yüksək məhsuldarlığın təmin edilməsi üçün mühüm aqro-texniki tədbirlər operativ şəkildə davam etdirilir. Məlumat verilir ki, rayonun təsərrüfatlarında 2017-ci ilin məhsulu üçün 4027 hektar sahədə pambıq əkini keçirilib. Yəni, nəzərdə tutulandan 27 hektar çox. İndiyədək təkrar becərmələr də daxil olmaqla, 6879 hektar sahəyə kultivator çəkilib, 7408 hektar sahədə alaq vurulub, 4027 hektar sahədə seyrəltmə işləri aparılıb.



Bildirilir ki, məhsuldarlığın artırılması məqsədilə pambıq əkilmiş sahələrin hamısına kultivatorla birlikdə hektara 150 kiloqram olmaqla azot gübrəsi verilib. Sahələrə aqrotexniki qaydada qulluq göstərmək üçün rayon üzrə 24 ədəd MTZ - 80 X markalı səpin və becərmə traktoru, 38 ədəd çiyidsəpən, o cümlədən 14 ədəd liftsiz çiyidsəpən, 24 ədəd kultivator gətirilərək istifadə olunur.

Ziyanvericilərə qarşı mübarizə aparmaq üçün hər birinin en götürümü 18 metr olmaqla 3 ədəd qollu çiləyici, 9 ədəd OVX markalı dərmansəpən mövcuddur. Alaq otlarına qarşı 133 hektar sahəyə herbisid, 3522 hektar sahədə mənənəyə, 1318 hektar sahədə isə sovkaya qarşı mübarizə tədbirləri görülüb və hazırda mübarizə tədbirləri davam etdirilir.

Rayonun ixracyönümlü kənd təsərrüfatı sahələrindən biri də baramaçılıqdır. Bildirilir ki, 2017-ci ilin məhsulu üçün 300 qutu barama qurdu toxumu gətirilərək 156 kümçüyə verilmişdi. Baramaçılar qarşıya qoyulan 15 ton məhsul istehsalını təmin ediblər. Hazır məhsulu kümçülərdən "Şəki İpək" ASC-nin nümayəndələri qəbul ediblər. Görülən işlərin nəticəsində və tədarük olunan məhsulun müqabilində yüksək gəlir əldə olunub. Rayonun Qaramahmudlu, Sovla, Qarasaqqal, Carlı, Yenikənd, Köhünlü, Qocalı və digər kəndlərində daha çox barama yetişdirilib.

Rayonda olarkən daha bir maraqlı məlumat da diqqətimizi çəkdi. Öyrəndik ki, tərkibi mikroelementlərlə zəngin olan, xüsusi dada malik Azərbaycan narı bu gün dünyada analoqu olmayan meyvədir və hər il Rusiyaya, Belarusa, Kanadaya, Yeni Zelandiyaya, Gürcüstana, Birləşmiş Ərəb Əmirliklərinə, Koreya Respublikasına və digər ölkələrə ixrac olunur. Təsadüfi deyil ki, təbii iqlim şəraiti nisbətən uyğun olan bir sıra ölkələr yeraltı və yerüstü sərvətləri ilə zəngin olan Azərbaycanın həm də narı ilə maraqlanır, öz ölkələrində təsərrüfatın bu sahəsini yaratmaq istəyirlər.

Kolumbiya Respublikası da məhz bu ölkələrdəndir. Azərbaycanda səfərdə olan Kolumbiya Respublikasının xarici işlər naziri xanım Mariya Anxela Olqin narçılıq təsərrüfatları ilə tanış olmaq, öz ölkəsində bu cür təsərrüfatlar yaratmaq imkanlarını öyrənmək məqsədilə Kürdəmirə gəlib və rayonun Karrar qəsəbəsindəki "Mars FK" MMC-yə məxsus 472 hektar sahədə məhsuldar bağla tanış olub. Rayon icra hakimiyyətinin başçısı Ceyhun Cəfərov, sahibkar Arif Qaraşov, Azərbaycan Nar İstehsalçıları Assosiasiyasının sədri Vaqif Tağıyevlə görüşən kolumbiyalı diplomat onlardan narçılıq təsərrüfatı, onun avtomatlaşdırılan idarəetmə sistemi, becərmə texnologiyası barədə ətraflı məlumat alıb.

Qonağa məlumat verilib ki, təsərrüfatda gülöyşə, şah nar, meyxoş, vələs və sair olmaqla 6 növ nar bağı mövcuddur. Hər növün özünəməxsus dadı və tərkibi var. Azərbaycan narına böyük marağın göstərildiyi qeyd olunaraq məlumat verilib ki, hələ ötən əsrin 20-ci illərinin əvvəllərində Göyçay qəzasından aparılan tinglərlə ABŞ-ın Kaliforniya ştatında böyük plantasiyalar salınıb. Kolumbiyanın Azərbaycandakı səfiri Marta Qalindo Pena isə ölkəsində narçılığa böyük maraq göstərildiyini, bu sahənin yaxşı gəlir verə biləcəyini söyləyib. O, ümidvar olduğunu bildirib ki, azərbaycanlı bağbanlar, lazım gələrsə, bu işdə onlara kömək edərlər. Kürdəmirli sahibkar təsərrüfatlarında istənilən qədər ting yetişdirməyə və Kolumbiyada iri nar bağlarının salınmasına hər cür kömək göstərməyə hazır olduqlarını bildirib.

...Dövlət başçımızın rayon rəhbərlərindən tələb etdiyi təşəbbüskarlığın, məsuliyyətin, sahibkarlara göstərdiyi qayğı və diqqətin nəticələri məhz budur. Kürdəmir zəhmətkeşləri bu gün, sözün həqiqi mənasında, dövlətin və Prezidentin qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsinin nümunəsini yaradırlar.

**Həmişə zirvələrdə, həmişə xoş soraqlarınızı eşidək!**

***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***